QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## AMNİSTİYA təşəbbüsü: "Konstitusiya və Suverenlik İli"nin ali yekunu



7

SƏS
№ 235 (7403)
Qəzet 1991-ci il yanvarın 11-dən çıxır
20 dekabr 2025-ci il.
Qiyməti 60 qəpik

## Dünya liderlərinin cərgəsində dayanan qalib sərkərdə



2

# Avropa Parlamenti köhnə ampluasında



3

## Abbas Abbasovun Samvel Karapetyanla biznesi ortağı olduqları üzə çıxdı



6

## Əhməd İsmayılovla Burhanettin Duran arasında görüş keçirilib



3

## Qəndmi, dərdmi?



5

## Toylarımız əndazədən ÇIXIB! - SAKİNLƏR ETİRAZ EDİR!



## Uşaqlarda niyə vitamin çatışmazlığı yaranır?



8

*İlham Əliyevin ilk dəfə ölkə prezidenti seçilməsindən sonra dünya siyasətində və regionumuzda parlamaqda olan yeni bir lider ortaya çıxdı. 2003-cü ildən başlayaraq yeni Prezident Azərbaycanın dünya miqyasında nüfuzunun artmasını və ölkəmizin siyasi, iqtisadi, hərbi cəhətdən qüdrətli dövlətə çevrilməsi istiqamətində sürətli islahatlara start verdi. Bu yazı silsiləmizdə dünya liderləri çərgəsində yerini tutmuş Azərbaycanın dövlət başçısının siyasi portretini çəkməyə çalışaşacağıq.*



# Dünya liderlərinin cərgəsində dayanan qalib sərkərdə

*"Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır" - Prezident İlham Əliyev*

PORTRET

(1-Cİ HİSSƏ)

### Təhsil pillələri və siyasi karyeranın başlanğıcı

1961-ci il dekabrın 24-də Bakı şəhərində, ümummilli liderimiz Heydər Əliyevin ailəsində dünyaya göz açmış İlham Əliyev 1967-1977-ci illərdə Bakı şəhərində 6 saylı orta məktəbdə təhsil alıb.

1977-1982-ci illərdə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda (MDBMİ) ailə təhsilini tamamlayıb.

1982-ci ildə həmin institutun aspiranturasına daxil olub.

1985-ci ildə dissertasiya müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsini alıb.

1985-1990-cı illərdə MDBMİ-nin müəllimi olub.

1991-1994-cü illər ərzində özəl biznes sahəsində çalışıb və bir sıra istehsal-kommersiya müəssisələrinə rəhbərlik edib.

1994-cü ildən 2003-cü ilin avqust ayınadək Dövlət Neft Şirkətinin əvvəlcə vitse-prezidenti, sonra isə 1-ci vitse-prezidenti olub.

1995-ci və 2000-ci illərdə Milli Məclisə üzv seçilib.

1997-ci ildən Milli Olimpiya Komitəsinin Prezidentidir.

1999-cu ildə Yeni Azərbaycan Partiyası sədrinin müavini, 2001-ci ildə sədrin birinci müavini, 2005-ci ildə isə Partiyanın sədri seçilib.

2003-cü il avqustun 4-də Milli Məclisdə təsdiq edildikdən sonra Azərbaycan Respublikasının Baş naziri təyin olunub.

2001-2003-cü illərdə Milli Məclisin Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) nümayəndə heyətinin rəhbəri olub. 2003-cü ilin yanvar ayında isə AŞPA sədrinin müavini, AŞPA-nın Büro üzvü seçilib. 2004-cü ildə AŞPA-nın fəxri üzvü diplomu və medalı ilə təltif edilib.

### Xalqın etimadını qazanan bacarıqlı lider

2003-cü ildə artıq çox yaşlanmış və xəstəlikdən əziyyət çəkən ulu öndər Heydər Əliyev prezident seçkilərində öz namizədliyini siyasi varisi İlham Əliyevi xeyrinə geri götürdü.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqına 01.10.2003-cü il tarixli müraciətində deyilirdi: "Üzümü Sizə- həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin 1-ci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm"

Xalqımız onun çağırışına qoşuldu və özünün də bacarıqlı lider kimi tanıdığı İlham Əliyevi dəstəklədi.

2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində seçicilərin 76 faizindən çoxu İlham Əliyevin lehinə səs verdi və o, ölkə prezidenti seçildi. Yeni Prezident 5 il ərzində qarşıya qoyduğu hədəflərə nail oldu, ölkədə iqtisadi proqramlar, demokratik islahatlar keçirib və sosial rifahın artmasını təmin etdi.

2008-ci il oktyabrın 15-də keçirilən seçkilərdə seçicilərin 88,73 faiz səsini qazanaraq ikinci dəfə Prezident seçildi. Növbəti müddətdə də iqtisadi islahatlar davam etdirildi, sosial sahədə dövlət siyasəti gücləndirildi, ordu quruculuğu yüksək səviyyədə həata keçirildi.

2013-cü il oktyabrın 9-da keçirilən seçkilərdə seçicilərin 84,54 faiz səsini qazandı və növbəti dəfə Prezidenti seçildi. Növbəti 5 ildə Azərbaycanın beynəlxalq mövqelərinin gücləndirilməsi, ordumuzun möhkəmləndirilməsi, iqtisadi cəhətdən inkişafın sürətləndirilməsi və sosial rifahın artırılması ilə bağlı qarşıya qoyduğu hədəfləri yerinə yetirdi.

2018-ci il aprelin 11-də keçirilən seçkilərdə İlham Əliyev seçicilərin 86,02 faiz səsini qazanaraq yenidən Azərbaycan Prezidenti seçildi. Növbəti müddət isə Azərbaycanı dünyanın inkişaf etmiş güclü dövlətləri ilə bir sıraya çıxarmaq hədəfinin yerinə yetirilməsi ilə bağlı işlərlə yadda qaldı. Qlobal böhran dövrünə düşən bu müddətdə Azərbaycan bütün çətinliklərdən uğurla çıxdı və iqtisadi gücünü, əhalinin sosial müdafiəsini qoruyub saxladı.

Ən əsası 2020-ci ilin payızında 2-ci Qarabağ müharibəsində Azərbaycanın qəhrəman ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Qarabağı Ermənistanın işğalçı qüvvələrindən təmizlədi və torpaqlarımızı azad etdi. Bu zəfər yürüşü möhtəşəm bir qəhrəmanlıq nümunəsi kimi tarixə düşdü.

Nəhayət sonuncu prezident seçkilərinin vaxtı çatır və bu seçkilərin əhəmiyyətini sözlə ifadə etmək mümkün deyildir...

### Zəfər seçkisi: Qalib xalqın Xankəndidə səs verən qalib lideri

2023-ci ildə Qarabağın kiçik bir hissəsində qalıb yaşamağa davam edən ermənilərin arasında xeyli silahlı separatçılar qalmışdı və onlar tez-tez ərazidə təxribatlar törədirdilər. Nəhayət Azərbaycan ordusu 1 günlük antiterror əməliyyatı həyata keçirərək həmin ərazini də erməni silahlı dəstələrindən təmizlədi. Beləliklə, Müzəffər sərkərdə İlham Əliyev Qarabağ problemini birdəfəlik nöqtə qoyaraq respublikamızın bütün əraziləri üzərində hakimiyyətimizi bərqərar etdi.

2024-cü il 7 fevral tarixli prezident seçkilərində cənab İlham Əliyevin seçki platformasında qarşıya qoyulmuş hədəflər:

-Hər bir vətəndaşın rifahının davamlı yaxşılaşdırılması;

-Qabaqcıl elmə və yüksək texnologiyalara əsaslanan dayanıqlı iqtisadi artım;

-İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış;

-Milli maraqlara söykənən müstəqil xarici siyasət;

-Milli təhlükəsizlik və müasir ordu quruculuğu;

-İnnovativ və müasir təhsil, qabaqcıl səhiyyə;

-Müasir, milli köklərə bağlı, vətənpərvər gəncliyin inkişafı;

-Demokratik inkişaf, insan hüquq və azadlıqlarının təmin edilməsi.

2024-cü il fevralın 7-də keçirilmiş Prezident seçkiləri əsl Zəfər seçkisi idi. Müstəqillik dövründə ilk dəfə olaraq seçkilər ərazilərimizin hər yerində keçirildi. Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Xankəndi şəhərində 122 saylı seçki dairəsinin 14 saylı seçki məntəqəsində səs verdi. Seçkilərdə seçici fəallığı 76,43 faiz oldu. İlham Əliyev seçicilərin 92,12 faiz səsini qazanaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.

Hazırda qarşıya qoyulmuş hədəflərin həyata keçirilməsi prosesi davam edir və uğurla reallaşacağına heç kimdə şübhə yoxdur.

### Dövlət siyasətinin müasir modeli

2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra İlham Əliyevin rəhbərliyi ilə xalqımız misilsiz nailiyyətlərə imza atmışdır. Ötən dövrdə həyata keçirilmiş ardıcıl və məqsədyönlü siyasi kurs ölkəmizin sürətli və dayanıqlı inkişafını, güclü iqtisadi potensialın formalaşmasını, müasir cəmiyyət quruculuğunu, vətəndaşların rifahını, təhlükəsizlik və müasir ordu quruculuğu kimi məsələlərin effektiv həllini təmin etmiş, ölkəmizin beynəlxalq nüfuzu yüksəlmiş, dünyada strateji əhəmiyyəti artmışdır.

Prezident İlham Əliyev Azərbaycan siyasi sisteminə rasional siyasi davranış modeli, məntiqi mühakimələrə və analitik təhlilə əsaslanan, mütərəqqi, pozitiv, milli məqsədlərə xidmət edən siyasi realizmə söykənən siyasi fəaliyyət nümunəsi gətirdi, öz fəaliyyəti və davranışı ilə siyasi sistemimizə siyasi mədəniyyət, milli mənəviyyatımıza uyğun siyasi əxlaq standartı, milli siyasi etika nümunəsi təqdim etdi.

### Gələcəyə hesablanmış dövlət siyasəti

Bu gün Azərbaycan xalqı formalaşmış yeni reallıqlar mühitində inamla və qürurla öz inkişafının növbəti mərhələsinə qədəm qoymuşdur. Yeni dövrdə qarşıda duran strateji vəzifələrimiz müstəqilliyimizi, əldə olunmuş nailiyyətləri daha da möhkəmləndirmək, Azərbaycanı davamlı və dayanıqlı inkişaf edən ölkəyə çevirməkdir. İşğaldan azad edilmiş ərazilərdə irimiqyaslı bərpa və yenidənqurma işlərinin, Böyük Qayıdışın davam etdirilməsi, təhlükəsizliyin təmin olunması və müasir ordu quruculuğu, qabaqcıl elmə və yüksək texnologiyalara əsaslanan iqtisadiyyatın formalaşdırılması, cəmiyyətin rifahının yüksəldilməsi, dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsi, müstəqil xarici siyasət sayəsində Azərbaycanın beynəlxalq mövqelərinin daha da gücləndirilməsi, cəmiyyət həyatında şəffaflığın və ictimai iştirakçılığın, həmçinin ölkədə mövcud siyasi dialoqun dərinləşdirilməsi, zəngin mədəni irsimizin, milli-mənəvi dəyərlərimizin qorunması və digər məsələlər həyata keçirilən siyasətin prioritet istiqamətləri olacaqdır.

Prezident İlham Əliyevin yürütdüyü siyasət müasir Azərbaycanın güclənməsinə, milli-mənəvi dəyərlərimizin ən yüksək səviyyədə qorunmasına xidmət edir. Şübhə yoxdur ki, bu siyasət ölkəmizin dünyanın ən inkişaf etmiş ölkələri ilə bir cərgədə dayanmasını təmin edəcək.

*(ardı olacaq)*

***Elçin Bayramlı***



# Avropa Parlamenti köhnə ampluasında

## Azərbaycana qarşı qərəzli dinləmələr münasibətlərin ruhuna ziddir

***Avropa Parlamenti (AP) son illərdə Azərbaycanla bağlı müxtəlif formatlarda dinləmələr, müzakirələr və qətnamə debatları keçirir. Bu dinləmələr əsasən insan hüquqları, demokratiya və hüququn aliliyi, regional təhlükəsizlik, Cənubi Qafqazda sülh prosesi, enerji əməkdaşlığı və Avropa İttifaqı–Azərbaycan münasibətlərinin gələcəyi kimi mövzuları əhatə edir. Müzakirələr bəzən kəskin polemika doğurur və tərəflər arasında yanaşma fərqlərini açıq şəkildə üzə çıxarır.***

Keçirilən dinləmələr formal olaraq insan hüquqları və demokratiya dəyərlərinin müdafiəsi kimi təqdim edilsə də, bu müzakirələrin mahiyyəti getdikcə daha çox siyasi alət xarakteri daşıdığı ilə diqqət çəkir. Dinləmələrin məzmunu, iştirakçı seçimi və yekun siyasi mesajlar Avropa Parlamentinin Azərbaycanla bağlı obyektiv və balanslı mövqedən uzaqlaşdığına dair ciddi suallar yaradır.

Lakin problem tənqidlərin mövcudluğunda deyil, onların seçmə xarakterindədir. Oxşar və ya daha ağır problemlərin mövcud olduğu digər region və ölkələrlə müqayisədə Azərbaycan məsələsinin daha tez-tez gündəmə gətirilməsi, daha sərt ifadələrlə müşayiət olunması, sanksiya çağırışları ilə tamamlanması ikili standartlar ittihamlarını gücləndirir. Bu kontekstdə insan hüquqları anlayışı dəyər olmaqdan çıxaraq geosiyasi təzyiq alətinə çevrilmiş təsiri bağışlayır. Bu isə Avropa Parlamentinin münaqişəyə tarazlı vasitəçi deyil, mövqeli aktor kimi yanaşdığı təsəvvürünü yaradır.

Azərbaycanla bağlı dinləmələr adətən Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsi (AFET), İnsan Hüquqları üzrə Alt Komitə (DROI), Cənubi Qafqaz üzrə AP nümayəndə heyəti çərçivəsində keçirilir. Dinləmələrdə Avropa Komissiyasının və Avropa Xarici Fəaliyyət Xidmətinin (EEAS) nümayəndələri, beynəlxalq və qeyri-hökumət təşkilatları, ekspertlər, jurnalistlər, bəzən isə Azərbaycan hökumətinə tənqidi mövqedə olan vətəndaş cəmiyyəti təmsilçiləri çıxış edirlər.

Avropalı parlamentarilər tez-tez söz və mətbuat azadlığı, siyasi fəalların və jurnalistlərin durumu, məhkəmə müstəqilliyi ilə bağlı subyektiv yanaşmalarını ortaya qoyurlar. Azərbaycan tərəfi isə bu iddiaları çox zaman selektiv yanaşma, ikili standartlar və daxili işlərə müdaxilə kimi qiymətləndirir, ölkədə hüquqi islahatların aparıldığını vurğulayır.

2020-ci ildən sonra keçirilən dinləmələrdə Qarabağ münaqişəsindən sonrakı vəziyyət əsas müzakirə mövzularındandır. Buraya bölgədə təhlükəsizlik və sabitlik, sülh sazişi perspektivləri, humanitar məsələlər və reinteqrasiya prosesləri daxildir. Avropa Parlamentində müxtəlif siyasi qruplar arasında bu mövzuda yanaşmalar fərqlənir. Bəzi deputatlar Azərbaycanın ərazi bütövlüyünü tanıdıqlarını bildirir, digərləri isə daha tənqidi mövqedən çıxış edirlər.

Avropa İttifaqının enerji təhlükəsizliyi kontekstində Azərbaycan strateji tərəfdaş kimi qiymətləndirilir. Dinləmələrdə Cənub Qaz Dəhlizi, alternativ enerji mənbələri, Aİ–Azərbaycan enerji dialoqu müzakirə olunur. Bu məqam bəzən insan hüquqları ilə bağlı tənqidlərin fonunda "dəyərlər və maraqlar dilemması" kimi təqdim edilir. Avropa Parlamentindəki siyasi qruplar Azərbaycanla bağlı məsələlərə fərqli baxış sərgiləyir. Yaşıllar və sol mərkəzçi qruplar daha sərt tənqidi mövqedən çıxış edirlər. Mühafizəkar və liberal qruplar isə dialoqun və əməkdaşlığın qorunmasının vacibliyini vurğulayırlar. Bu fərqlilik dinləmələrin tonuna və sonradan qəbul edilən qətnamələrin məzmununa da təsir göstərir.

Rəsmi Bakı isə Avropa Parlamentində keçirilən bəzi dinləmələri və qəbul edilən qətnamələri qərəzli, balanssız, regionun reallıqlarını nəzərə almayan sənədlər kimi qiymətləndirir. Azərbaycan tərəfi faktlarla sübut edir ki, bu cür dinləmələr ikitərəfli münasibətlərə zərər vurur və konstruktiv əməkdaşlıq üçün əlverişli zəmin yaratmır. Dinləmələr əslində Aİ–Azərbaycan siyasi dialoqunun tonuna, yeni saziş üzrə danışıqlara, beynəlxalq ictimai rəydə ölkə ilə bağlı təsəvvürlərə təsir göstərir, münasibətlərin müsbətə doğru inkişafını əngəlləyir. Eyni zamanda, bu dinləmələr tərəflər arasında açıq dialoq üçün platforma rolunu da oynaya bilər. Ekspertlərin fikrincə, qarşılıqlı etimadın bərpası üçün daha balanslı yanaşma və birbaşa institusional təmaslar vacibdir.

Avropa Parlamentində Azərbaycanla bağlı dinləmələr təkcə hüquqi və siyasi məsələlərin müzakirəsi deyil, həm də Avropa İttifaqının Cənubi Qafqaz siyasətinin göstəricisidir. Bu proseslər Azərbaycanın beynəlxalq mövqeyinə, Aİ ilə münasibətlərinin gələcək istiqamətlərinə və regionda davamlı sülh perspektivlərinə birbaşa təsir göstərmək potensialına malikdir.

Məsələyə münasibət bildirən siyasətçilər qeyd ediblər ki, Azərbaycanın uğurları beynəlxalq aləmdə əks-səda doğurduğu an Avropa Parlamenti öz məkrli siyasətini ortaya qoyur. Deputat Səməd Seyidov əlavə edib ki, AP Azərbaycanı müzakirəyə dəvət etməli, qarşılıqlı fikir mübadiləsi aparmalı idi: "Lakin qurum tamamilə fərqli və qərəzli mövqedən çıxış edir. Avropa Parlamentinin daxilində yalan, böhtan, ikili standartlar və korrupsiya hökm sürür. Azərbaycanın COP29-a ev sahibliyi etməsi məsələsində də Avropa Parlamenti yalnız boykot mövqeyi nümayiş etdirib".

Avropa Parlamenti ölkəmizə qarşı qərəzli yanaşma sərgiləsə də, qurum daxilində bir sıra deputatlar Azərbaycanın mövqeyini dəstəkləmək niyyətindədir. "Biz növbəti dəfə erməni lobbisinin təmsilçisinə çevrilən Avropa İttifaqının ölkəmizə qarşı qərəzli yanaşmasının şahidiyik. Çox təəssüf ki, Avropa Parlamentinin Azərbaycanla bağlı qərəzə və ikili standartlara yol verməsi ənənə halını alıb. Burada bir məqsəd var o da Cənubi Qafqazda Azərbaycanın Ermənistan arasında sülh və təhlükəsizlik prosesinə mane olmaqdır. Görünür, Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə dünyada artan nüfuzu onları ciddi narahat edir. Münaqişənin tənzimlənməsinə heç bir real töhfə verməyən Avropa İttifaqı bölgəmizə sülhün gəlməsinə mane olmaq yolu seçib", bunu isə Milli Məclisin plener iclasında deputat Ceyhun Məmmədov deyib.

Bu gün Ermənistanda baş verən repressiyalara qarşı Qərb strukturları heç bir dinləmələr keçirmir, sənəd qəbul etmir, əvəzində Azərbaycanda insan haqları ilə bağlı dinləmələr təşkil edir. 1 milyon azərbaycanlının evi, milli-mədəni, tarixi abidələrimiz Ermənistan tərəfindən dağıdıldıqda Avropa və onun parlamentariləri harada idilər? üstəlik Aİ-nin müharibə cinayətkarlarına sevgisi artmaqdadır. Təşkilat dəfələrlə Azərbaycana müharibə cinayətkarlarını azad etməyə çağırışlar edib. Halbuki onlardan biri – Bakıda istintaq təcridxanasında olanda Ruben Vardanyan Ukraynaya qarşı müharibəni maliyyələşdirən oliqarxlardan biri idi.

Avropa Parlamenti tərəfindən Azərbaycanla bağlı növbəti qəbul edilən qərəzli kağız parçası heç bir hüquqi əsasa söykənmir. Azərbaycanda heç kim öz fikirlərinə və ya siyasi fəaliyyətinə görə həbs edilmir. Bu sözləri Milli Məclisin iclasında deputat Kamran Bayramov səsləndirib: "Avropa Parlamentində son dövrlərdə baş vermiş korrupsiya qalmaqalları bu qurumun rüşvətə nə dərəcədə açıq olduğunu aydın şəkildə ortaya qoyub. Siyasi birja obrazı qazanan Avropa Parlamenti başqa dövlətləri ittiham etməyə cəhd göstərir. Avropa Parlamentinin mənəvi nüfuzu sıfırdan da aşağıdır və bu qurumun Azərbaycana yol göstərməyə və ya hər hansı məsələləri diktə etməyə heç bir haqqı yoxdur".

Milli Məclisin Avropa Parlamentinin Azərbaycan əleyhinə qətnaməsi ilə bağlı yaradılan komissiyası bəyanat mətnini hazırlayıb. Bəyanatda bildirilib ki, Azərbaycan Respublikasının Milli Məclisi, Avropa Parlamentinin 2025-ci il 18 dekabr tarixli qətnaməsini qətiyyətlə rədd edir və onu siyasi məqsədlərə xidmət edən, qərəzli bir sənəd kimi qiymətləndirir. Yalan məlumatlar və saxta iddialar əsasında hazırlanmış bu sənəd, konkret cinayət əməllərinə siyasi don geyindirməyə cəhd edir, hüququn aliliyini pozur və Azərbaycanın daxili işlərinə kobud müdaxilədir. Aydındır ki, Azərbaycan reallıqlarını bilməyən və ya bilərəkdən görməzdən gələn Avropa Parlamenti, bir daha siyasi riyakarlıq nümayiş etdirərək, insan hüquqları məsələlərini öz gizli gündəliyi və təxribatçı niyyətləri üçün vasitəyə çevirir.

Qeyd edilib ki, Azərbaycanın ərazilərinin 30 ildən artıq müddətdə işğalda qalmasına, yüzlərlə şəhər və kəndlərimizin viran edilməsinə, tarixi və mədəni irsimizin dağıdılmasına və 1 milyondan artıq məcburi köçkünün pozulmuş hüquqlarına biganə qalan Avropa Parlamenti, Vətən müharibəsi və antiterror tədbirləri nəticəsində Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpa olunmasına da qərəzlə yanaşır. Bundan əlavə bəyanatda COP29 tədbirinin ölkəmizdə keçirildiyi zamanı Avropa Parlamenti ölkəmizə qarşı hücumlarda fəal rol oynayan qurumlardan biri olduğu qeyd olunub.

Azərbaycan Respublikasının Milli Məclisi bəyan edib ki, bu qətnamənin heç bir hüquqi qüvvəsi yoxdur və o, ölkəmiz tərəfindən tamamilə rədd edilir. Azərbaycan bundan sonra da müstəqil siyasətini davam etdirəcək, beynəlxalq hüquqa, insan hüquqlarına və ədalətə əsaslanan mövqeyini müdafiə edəcəkdir.

**V.VƏLİYEV**

# Əhməd İsmayılovla Burhanettin Duran arasında görüş keçirilib



"Türk dövlətlərinin dezinformasiya ilə mübarizə üzrə Forumu" çərçivəsində Medianın İnkişafı Agentliyinin (MEDİA) İcraçı direktoru Əhməd İsmayılovla Türkiyə Prezidenti Administrasiyasının İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Burhanettin Duran arasında ikitərəfli görüş keçirilib.

MEDİA-dan verilən məlumata görə, görüş zamanı vurğulanıb ki, Azərbaycan ilə Türkiyə arasında media sahəsində formalaşmış strateji tərəfdaşlıq dezinformasiya ilə mübarizə istiqamətində ardıcıl və məqsədyönlü şəkildə inkişaf etdirilir.

Qeyd olunub ki, müasir informasiya mühitində saxta və manipulyativ məzmunların sürətlə yayılması ictimai rəyə və regional sabitliyə ciddi təsir göstərir, bu isə Türk dövlətləri arasında əlaqəli, institusional və davamlı əməkdaşlığın gücləndirilməsini zəruri edir. Bu kontekstdə Türkiyə–Azərbaycan Media Platformasının birgə fəaliyyət, operativ informasiya mübadiləsi və vahid mövqenin formalaşdırılması baxımından səmərəli mexanizm olduğu xüsusi vurğulanıb.

Eyni zamanda, qeyd edilib ki, informasiya axınlarının intensivləşdiyi şəraitdə media sahəsində təcrübə mübadiləsinin genişləndirilməsi, qarşılıqlı dialoqun dərinləşdirilməsi və peşəkar əməkdaşlığın təşviqi mühüm əhəmiyyət daşıyır. Media və kommunikasiya sahəsində mövcud çağırışların müzakirəsi, praktiki həll yollarının müəyyənləşdirilməsi və birgə yanaşmaların formalaşdırılmasının gələcəkdə daha intensiv şəkildə həyata keçiriləcəyinə əminlik ifadə edilib.

***Mətləb Salahov***

*Azərbaycan Prezidenti İlham Əliyev dövlətçilik ənənələrini yaşadan, müdrik idarəetmə bacarığı ilə fərqlənən bir lider kimi tariximizin yeni səhifələrini yazdı. Müasir dünyamızda Prezident İlham Əliyev Azərbaycanın müstəqilliyinin qarantı, beynəlxalq arenada söz sahibi olan lider kimi ölkəmizin gələcəyini formalaşdırır. Onun rəhbərliyi ilə Azərbaycan güclü dövlətçilik ənənələrini daha da möhkəmləndirərək xalqın birlik və iradəsinin əsl təcəssümünə çevrilib. Ötən hər il xalqın öz seçimində yanılmadığını təsdiqləməkdədir.*

# Prezidentə dost təbrikləri!



Prezident İlham Əliyev Azərbaycanı həm siyasi-iqtisadi, həm də hərbi cəhətdən qüdrətli, dünyada sözü keçən dövlətə çevirdi. rezident İlham Əliyevin beynəlxalq münasibətlərə dair dərin bilikləri və çevik diplomatik manevrləri Azərbaycanın xarici siyasət kursunun uğurla həyata keçirilməsində mühüm əhəmiyyət kəsb edir. Dövlətimizin başçısı ölkələrin suverenliyinə hörmət edilməsinin, qarşılıqlı faydalı əməkdaşlığın qurulmasının və gücləndirilməsinin vacibliyini vurğulayaraq, Azərbaycanın xarici siyasət strategiyasını məhz bu prinsiplər əsasında formalaşdırıb. Azərbaycanın beynəlxalq aləmdə söz sahibi kimi tanınmasını təmin edib və Prezident İlham Əliyevin irəli sürdüyü təşəbbüslərə geniş dəstək qazandırıb. Bu gün Azərbaycan Prezidenti İlham Əliyevə doğum günü münasibətilə dünya ölkələrinin liderləri, beynəlxalq təşkilatlar tərəfindən təbrik məktubları gəlir. Çin Xalq Respublikasının Sədri Si Cinpi Prezidentimizi doğum gününüz münasibətilə səmimi təbriklərini və ən xoş arzularını çatdırmaqdan şərəf duyduğunu ifadə edib: "Məqsədyönlü rəhbərliyimizlə Çin-Azərbaycan hərtərəfli strateji tərəfdaşlıq münasibətləri sürətlə inkişaf edir, ölkələrimiz arasında qarşılıqlı siyasi etimad daim möhkəmlənir, ikitərəfli faydalı əməkdaşlıq durmadan inkişaf edir və beynəlxalq səviyyədə fəaliyyət səmərəli şəkildə reallaşdırılır. Bu il ərzində Sizinlə iki dəfə görüşmüşük, əldə etdiyimiz mühüm razılaşmalar səmərəli və hərtərəfli şəkildə həyata keçirilir. Çin ilə Azərbaycan arasında münasibətlərin inkişafına böyük əhəmiyyət verirəm. Hər iki ölkənin xalqlarının rifahı naminə hərtərəfli əməkdaşlıqda yeni nəticələr əldə etmək üçün Sizinlə birlikdə çalışmağa hazıram".

Bu gün Çin və Azərbaycan arasında əməkdaşlıq durmadan inkişaf edir. Ölkələr arasında dostluq əlaqələri qədim tarixi köklərə malikdir. Çin və Azərbaycan arasında diplomatik əlaqələrin yaradılması hər iki ölkənin tarixində yeni vacib bir səhifə açıb. Çin Azərbaycan üçün etibarlı tərəfdaş və dost dövlətdir. İki ölkə arasında münasibətlər tarixinin ən yüksək səviyyəsindədir və müxtəlif - siyasi, iqtisadi, mədəni, humanitar, nəqliyyat-logistika sahələri əhatə edir. Azərbaycan-Çin əlaqələri yalnız iqtisadi deyil, həm də geosiyasi və strateji sahələrdə güclənib. İki ölkə başçısı arasında şəxsi dostluq münasibətləri əməkdaşlığı daha da dərinləşdirib. Bu günədək Azərbaycan və Çin arasında 100-dən artıq sənəd imzalanıb. İki dövlət arasında iqtisadi əlaqələr, o cümlədən yük daşımaları sahəsində əməkdaşlıq inkişaf edir.

## BELARUS-AZƏRBAYCAN DİALOQU DƏRİNLƏŞİR

Bu gün dünya sürətlə dəyişir və mürəkkəb geosiyasi reallıqlar fonunda münasibətlərin inkişaf dinamikasını diqqət mərkəzində saxlamağı zəruri edir. Azərbaycan qarşılıqlı etimada əsaslanan siyasət həyata keçirir. Azərbaycan Belarus münasibətləri də yüksələn xətlə inkişafdadır. Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik ünvanlayıb. "Sizi doğum gününüz münasibətilə səmimi qəlbdən təbrik edirəm. Əminəm ki, bu il Siz bayramınızı xüsusi əhvali-ruhiyyə ilə qarşılayırsınız. Sizin siyasi müdrikliyiniz və möhkəm iradəniz sayəsində Azərbaycan Respublikası qarşıya qoyulmuş məqsədlərə nail olaraq beynəlxalq nüfuzunu inamla artırır. Belarusda ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinə, həmçinin müxtəlif sahələrdə dövlətlərarası əməkdaşlığın ardıcıl inkişafına xüsusi əhəmiyyət verilir. Çoxtərəfli platformalarda etimada əsaslanan təmasları və qarşılıqlı dəstəyi, eləcə də Belarus-Azərbaycan dialoqunun bütün səviyyələrdə dərinləşdirilməsinə göstərdiyiniz diqqəti yüksək qiymətləndirirəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və Azərbaycan xalqının rifahı naminə yeni nailiyyətlər arzulayıram", - deyə təbrikdə bildirilib.

## DOSTLUQ VƏ HÖRMƏT RUHUNDA KEÇƏN GÖRÜŞLƏR

Qazaxıstan Respublikasının birinci Prezidenti Nursultan Nazarbayev isə təbrikində "Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin. Siz ölkənizin mənafeyi naminə xalqınızın və dahi atanızın gözləntilərini layiqincə doğruldursunuz. Uzaqgörən siyasətiniz sayəsində Azərbaycanın beynəlxalq nüfuzu artmış, regionda sülh və qarşılıqlı etimadın yeni bir mərhələsi formalaşmışdır. Ölkənizə davamlı rifah və yeni nailiyyətlər arzulayıram. Aramızda yaranan hörməti xüsusilə yüksək qiymətləndirirəm. Dostluq və hörmət ruhunda keçən bütün görüşlərimizi, söhbətlərimizi həmişə xoş duyğularla yada salıram. Hörmətli İlham Heydər oğlu, bu əlamətdar gün münasibətilə Sizə möhkəm cansağlığı, nəcib təşəbbüslərinizdə müvəffəqiyyət, qardaş Azərbaycan xalqına isə firavanlıq və yeni uğurlar diləyirəm", - deyə bildirib.

İki ölkə arasında münasibətlər diplomatik çərçivəni aşaraq türk birliyi ideyasına, qarşılıqlı etimada və dərin inteqrasiyaya söykənən çoxşaxəli strateji tərəfdaşlıq səviyyəsinə çatıb.

Azərbaycan ilə Qazaxıstan yalnız ikitərəfli çərçivədə deyil, beynəlxalq təşkilatlar daxilində də bir-birini fəal şəkildə dəstəkləyir. BMT, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, və digər platformalarda ortaq mövqelər nümayiş etdirilir. Bu həm siyasi həmrəylik, həm də regional və qlobal məsələlərdə ortaq maraqların müdafiəsi baxımından olduqca əhəmiyyətlidir. İkitərəfli münasibətlərin ən dinamik elementlərini isə iqtisadi-ticari əlaqələr təşkil edir. Prezident İlham Əliyevin vurğuladığı kimi, iqtisadi əməkdaşlığın spektri son illərdə əhəmiyyətli dərəcədə genişlənib. Ölkələr arasında etimad əsasında formalaşmış biznes əlaqələri və dövlət səviyyəsində aparılan məqsədyönlü siyasət sayəsində qarşılıqlı ticarət, investisiya və logistika əməkdaşlığı sürətlə artır.

Çağdaş dünyamızda dövlət siyasətinin müasir modelini yaradan Cənab İlham Əliyev Prezidentliyi dövründə ölkənin həyatının bütün sahələrində verdiyi vədlərin hamısının yerinə yetirilməsinə nail olmuşdur. 2003-cü il oktyabrın 15-də Azərbaycan Prezidenti İlham Əliyevin dövlət başçısı seçilməsindən ötən dövr ərzində ölkəmizin qazandığı uğurlar ölkəmizə dost və qardaş olan ölkələr tərəfindən maraqla qarşılanır. Mərkəzi və Şərqi Avropa, ümumiyyətlə, bütün dünya ölkələri ilə müxtəlif sahələri əhatə edən ikitərəfli əməkdaşlıq Azərbaycanın xarici siyasətinin məntiqi nəticəsidir. Azərbaycan ilə dünya ölkələri arasında ikitərəfli münasibətlər iqtisadi, ticari, enerji, turizm və digər sahələri əhatə edir. Beynəlxalq hüquq normalarına, qarşılıqlı inam və etimada, faydalı əməkdaşlığa əsaslanaraq, xarici siyasətini həyata keçirən Azərbaycan dünya dövlətləri, eləcə də qonşu dövlətlərlə münasibətlərini daha da inkişaf etdirməyə nail olmuşdur. Bu gün dünya dövlətləri ilə qarşılıqlı etimad səviyyəsində qurulan diplomatik əlaqələr yüksək bir mərhələdədir. Son 22 il ərzində aparılan xarici siyasət, ölkədə həyata keçirilən sistemli islahatların nəticəsi olaraq xalqın həyatını köklü şəkildə dəyişməsi, 2020-ci ildə Prezident İlham Əliyevin qətiyyəti sayəsində torpaqlarımızın işğaldan azad edilməsi dünyanın diqqətindən kənarda qalmadı.

## AZƏRBAYCAN MÜASİR VƏ UĞURLU BİR DÖVLƏTƏ ÇEVRİLİB

Daha bir təbrik isə Ukraynanın Prezidenti Volodimir Zelenskidən ünvanlanıb. Təbriekdə qeyd olunur: "Sizin liderliyiniz sayəsində Azərbaycan müasir və uğurlu bir dövlətə çevrilmiş, beynəlxalq aləmdə öz rolunu və nüfuzunu inamla gücləndirərək, dövlət üçün mühüm nəticələrə, o cümlədən ərazi bütövlüyünün bərpasına və möhkəmləndirilməsinə nail olmuşdur.

Xalqlarımızın dostluğunun və Ukrayna ilə Azərbaycan arasında qarşılıqlı dəstəyə, beynəlxalq hüquqa, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət prinsiplərinə əsaslanan strateji tərəfdaşlığın möhkəmləndirilməsində Azərbaycan Respublikasının Prezidenti kimi Sizin şəxsi töhfənizi yüksək qiymətləndirirəm.

Bu tərəfdaşlıq Qara dəniz-Xəzər regionunda ədalətli sülhə nail olmaq niyyətinə, eləcə də enerji, iqtisadi-ticari, humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın inkişafına xidmət edir.

Ukrayna Rusiya Federasiyasının silahlı təcavüzü şəraitində göstərilən həmrəylik və praktiki dəstəyə görə Sizə və Azərbaycan xalqına dərin minnətdarlığını bildirir. Xüsusilə ölkənin enerji sistemi obyektlərinin fəaliyyətinin təmin edilməsi məqsədilə göstərilən humanitar yardım, Kiyev vilayətində işğaldan azad edilmiş İrpin şəhərinin yenidən qurulmasında iştirak, cəbhəyanı regionlardan olan ukraynalı uşaqların sağlamlığının bərpası və reabilitasiyası yüksək dəyərləndirilir".

Bütün bu və ya digər təbrik məktubları Azərbaycan Prezidenti İlham Əliyevə dost, tərəfdaş olan dövlətləri tərəfindən ünvanlanıb. Təbrik məktublarından da göründüyü kimi, Azərbaycan Prezidentinə dünya mtiqyasında böyük ehtiram və sevgi vardır.

İkitərəfli siyasi münasibətlərin qurulması siyasi-iqtisadi və mədəni əlaqələrin inkişafına əlverişli zəmin yaratmış oldu. Müstəqil dövlət kimi Azərbaycanın dünya dövlətləri, təşkilatları ilə əməkdaşlığı və dostluq münasibətləri dövlətlər arasında qarşılıqlı anlaşmanın qurulmasına və davamlı olmasına təsirini göstərir. Böyük nailiyyətlərin müəllifi olan Prezident İlham Əliyev dünya liderləri arasında seçilən dövlət başçılarından biridir.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Qəndmi, dərdmi?



## İstehlakçının gec əriyən qənd axtarması istehsalçının dəyirmanına su tökür

***İnsan orqanizminə ən təhlükəli zərərləri vuran üç qidadan biri də şəkərdir. Bütün sağlamlıq biliciləri deyir ki, əslində, şəkər, tütün qədər təhlükəli, zərərverici və asılılıq yaradan qidadır. Bir çox dünya alimi onu, hətta narkotiklə müqayisə edir. Statistikaya görə, Azərbaycanda bu nemətin istehlak miqdarı əmək qabiliyyətli əhali üçün 17, 0-15 yaş arası uşaqlar üçün 18 kq təşkil edir.***

### Əsl şəkər necə olmalıdır?

Qidalanmamızda əvəzedilməz vasitələrdən biri hesab etdiyimiz şəkər insan orqanizmində 95%-dən çox mənimsənilir. Bu gün dünyada istehsal olunan şəkərin 45% şəkər çuğundurundan, qalan 55 %-i isə şəkər qamışından əldə edilir. Şəkər tozu quru, dənəvər olmalı, heç bir halda ələ yapışmamalıdır, şəkər kristallarının həcmi isə 0,2-2,5 mm-dən artıq olmamalıdır.

Keyfiyyətli şəkər tozunun rəngi ağ və ya sarımtıl, parıltılı, dadı saf şirin olmalıdır, kənar dad və iyi verməməlidir. Suda tam həll olmalı və çöküntü verməməlidir. Şəkər tozunun nəmliyi 0,14 faizdən, quru maddəyə görə saxaroza 99,75 faizdən az, reduksiyaedici maddələr 0,05 faizdən, kül isə 0,03 faizdən çox olmamalıdır. Rafinad-qəndinin nəmliyi çeşidindən asılı olaraq 0,1-0,4 faizdən çox, quru maddəyə görə saxaroza 99,9 faizdən az olmamalıdır. Bütün bunlar qəndin bizim ölçə və hiss edə bilməyəcəyimiz əlamətləridir, bəs adi gözlə şəkərdəki anormallığı və bizə təhlükə yarada biləcəyini necə bilmək olar?

### Qəndin tərkibindəki dəhşət

Azərbaycanda qənd istehsalı ilə həm böyük müəssisələr, həm də xırda sexlər məşğuldur. Ekspertlər hesab edir ki, insan orqanizmini hədələyən təhlükənin təməli də elə bu sexlərdə qoyulur. Sahibkarlar daha çox qazanc əldə etmək məqsədi ilə bu sexlərdə istehsal olunan qəndin tərkibinə daha ucuz əldə edilən lazımsız komponentlər əlavə edir. Bununla onlar həm də qəndin möhkəmliyini artırmaq, xüsusi dad vermək məqsədi güdürlər. Təbiidir ki, istifadə etdikləri komponentlərin insan orqanizminə vuruğu dəhşətli zərərlər barədə heç bir sahibkar düşünmür, onları maraqlandıran, sadəcə, əldə edəcəkləri mənfəətdir.

Bəzi məlumatlara görə, kəllə qənd adı ilə istehsal edilən məhsulların təhlükəsi daha çoxdur. Belə ki, zaman-zaman mətbuatda, qənd sexlərində qəndin içinə heyvanın üyüdülmüş sümüyünün qatılması barədə məlumatlar da dərc olunub. Bu üsulla istehsalçı guya qəndin möhkəmliyinə, suya davamlılığına nail olur. Axı istehlakçı ağızda tez əriyib suya dönən qəndi keyfiyyətsiz hesab edir. Təbii ki, haqsız olaraq. Mütəxəssislər gec əriyən qəndləri istehlak etməməyi məsləhət görür.

Sahibkarların bunu etməkdə bir məqsədi qəndin bərk olmasıdırsa, digər məqsədi də çəkidə ağır gəlməsidir. Hələ sovet dövründə Azərbaycanda



xüsusi adamlar kənd yerlərini gəzərək heyvan sümüyü toplayırdılar. Uzun illərdir ki, cəmiyyətdə heyvan sümüyündən qənd istehsalında istifadə olunması barədə məlumatlar dolaşır. Çox sayda şikayət var, amma təəssüf ki, bu günə kimi qəndin tərkibinin nədən ibarət olduğunu araşdırılaraq bir nəticəyə varılmayıb.

Qəndin tərkibinə qatılan heyvan sümüyünün insanda dəhşətli xəstəliklərə səbəb olduğu barədə kifayət qədər çox məlumat var. Bu heyvan sümüklərinin xəstə heyvanların olması ehtimalı vəziyyəti daha da çətinləşdirir. Əldə etdiyimiz bəzi məlumatlara görə isə bu sexlər xüsusi adamların zibilliklərdən yığdığı sümüklər müqabilində qonarar ödəyir.

### İmişlidən süfrəmizə nə gəlir?

İmişli Şəkər Zavodunun inşaat işlərinə 2003-cü ildə, ümummilli lider Heydər Əliyevin xeyir-duası ilə başlanılıb. 70 hektar ərazidə inşa olunan zavoda 100 milyon ABŞ dolları məbləğində investisiya qoyulub. Dünya standartlarına cavab verən texnologiyalarla təchiz edilmiş İmişli Şəkər Zavodunun layihə və montaj işləri Almaniya, Polşa, Türkiyə və Ukrayna mütəxəssislərinin nəzarəti altında azərbaycanlı mühəndis və montaj heyəti tərəfindən həyata keçirilib.

23 mart 2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə İmişli Şəkər Zavodunun rəsmi açılış mərasimi keçirildi. İmişli Şəkər Zavodu hazırda şəkər tozu, heyvan yemi, kəllə qənd və etanol istehsalı sahələrində fəaliyyət göstərir. İmişli şəkər zavodunun illik istehsal gücü 60000 tondur.

Ümumiyyətlə, şəkər tozunun keyfiyyəti kristalların quruluşuna, xarici görünüşünə, rənginə, dadına, iyinə, həll olmasına və kənar əlavələrin olub-olmamasına görə müəyyən edilir. Qeyd edək ki, dünyada qəndi şəkər qamışı və şəkər çuğundurundan hazırladıqları halda Azərbaycanda bu qida məhsulu birbaşa şəkər tozundan hazırlanır. Yəni bu qida vasitəsinin istehsalında birbaşa xammala müraciət edilmir.

### Şəkərlə xəstəlik qohumdur

Həkimlər deyir ki, şəkər xərçəng hüceyrələrinin ən çox sevdiyi qidadır. Şəkər tozu və qənd immunitet sistemini zəiflədə, bədənin mineral tarazlığını poza, uşaqlarda hiperaktivliyə, narahatlıq, diqqət pozuqluğuna, tənbəlliyə səbəb ola bilər, bundan əlavə bakteriya infeksiyalarına qarşı müdafiəetmə sistemini zəiflədə bilir. Çox istehlak edilən şəkər böyrəklərə zərər verir, orqanizmdə mis, kalsium azlığı yaradır.

Üzdən məsum görünən, mətbəximizin şirinliyi, şirniyyatlarımızın baş tacı, qış tədarükü olan mürəbbələrin, kompotların əsas komponenti olan şəkər qadınlarda döş, yumurtalıq, kişilərdə prostat xərçənginə səbəb olur. Öd kisəsi xərçənginin yaranma səbəblərindən biri də məhz şəkərdir.

O eyni zamanda, görmə qabiliyyətini zəiflədir, mədə şirəsini azaldır, saçların ağarmasına, spirt asılılığına, diş çürüməsinə, kökəlməyə, astmaya, göbələk infeksiyalarına, öd problemlərinə səbəb olur. İşemik ürək xəstəlikləri, kor bağırsaq tutmaları, qanda qlükozanın azalması, qida allergiyası, şəkərli diabetin yaranması, hamiləlikdə qan zəhərlənmələri, gözün kataraktası kimi xəstəliklər məhz şəkərin töhfəsidir.

Miqren tutmaları zamanı şəkər istehlakını minimuma endirmək lazımdır. Depressiyaya tez-tez düşən insanların rasionuna diqqət etsəniz görərsiniz ki, onlar şəkərdən çox istifadə edir. Və nəhayət, şəkər alzeymer kimi dəhşətli bir xəstəliyə səbəb olur. Bu xəstəlik insanın bütün həyatını bir anda unutması, keçmişinə dair heç bir şeyi xatırlamaması deməkdir.

***Lalə Mehralı***

---



**Mətanət Məmmədova**

# 365-in ən uzun gecəsi, həm də Çilləsi gəlir...

***Bu, dekabrın 20-dən 21-nə keçən gecədir. Payızın üzərində hökmranlığa keçən qışın gəlişi ilə özünü göstərməsidir. Və təbiətin özü üçün qurduğu planlardan biridir. Bu plana əsasən 21 martda gün-gündüz bərabərliyi yaranır. Gecə ilə gündüz bərabərləşir, şimal yarımkürəsində yaz, cənub yarımkürəsində isə payız başlayır. 21 iyun yay gündönümü baş verir. Bu, ilin ən uzun gündüzünün və ən qısa gecəsinin baş verdiyi vaxtdır. Başqa bir adı Yaz gündönümüdür. Şimal yarımkürəsində yay başlasa da, cənub yarımkürəsində qış başlayır.***

23 sentyabr gündüz bərabərliyi yaranır. Gecə ilə gündüz bərabərləşir. Şimal yarımkürəsində yay bitir, payız başlayır. Cənub yarımkürəsində yaza keçid olur.

21 dekabrda isə qış gündönümü deyilən an şimal yarımkürəsində günlər uzanmağa, cənub yarımkürəsində isə qısalmağa başlayır. Bəzi ölkələrdə bu tarix şimal yarımkürəsində qışın, cənub yarımkürəsində yazın başlanğıcı hesab olunur. Ancaq bəzi ölkələrdə yay və ya qışın ortası hesab olunur. Ən uzun gün cənub yarımkürəsində, ən uzun gecə isə şimal yarımkürəsində yaşanır.

Beləliklə, 21 dekabr gecəsi ömrümüzə qış fəslini gətirməklə, həm də gecə-gündüz bərabərliyini yaradıb, daha sonra günlərin uzanması, gecələrin qısalması ilə davam edir. Xalqımız qış fəslini xalq təqviminə uyğun olaraq, "çillə" adı ilə üç yerə bölüb. Bunlardan böyük çillə 40 gün (21 dekabr - 30 yanvar), kiçik çillə 20 gün (31 yanvar - 20 fevral), ala çillə və ya ala çolpav (boz ay da deyilir) isə bir ay (20 fevral - 20 mart) davam edir.

Qışın daxil olduğu gün ölkəmizdə, hətta Cənubi Azərbaycan, İran, Əfqanıstan və bir çox yerlərdə hər il dekabrın 20, ya da 21-də Çillə mərasimləri ilə qeyd olunur.

Bu mərasimdə hökmən qarpız kəsilməlidir. Buna Çillə qarpızı deyirlər. Etnoqrafların söylədiyinə görə, Çillə qarpızına bolluq, bərəkət rəmzi kimi baxılır. Çillə gecəsində qarpız kəsmək qışı xoş qarşılamaqla bərabər, ondan qorxmamağa işarədir. Çillədə qarpız kəsəndə deyərlər ki, "ay qarpız, mən səni necə kəsirəmsə, çilləni də belə tez kəsim". Yəni qışa, şaxtaya yenilməyim, onu dərdsiz, bəlasız başa vurum. Naxçıvanda yaşlı insanların dediklərinə görə, çillədə qarpız kəsilir ki, günümüz qırmızı, yeni günəşli olsun.

Çillə qarpızı kəsilən vaxt xalq arasında niyyətetmə adəti də icra olunur. Bu zaman qarpızın baş tərəfini kəsərək dörd yerə ayırıb atırlar. Əgər hissələrdən ikisi eyni tərəfi üstə düşərsə, niyyət qəbul edilmiş sayılır. Bu da belə bir fikir söyləməyə əsas verir ki, çillə gecəsi qarpızın qabığının bir hissəsinin dörd yerə bölünüb niyyət tutub atılması, bəlkə də, dörd fəsillə, atılan qarpız qabıqlarının rənglərinə uyğun (ağ və yaşıl) niyyətin qəbul olması isə fəsillərin əlamətləri ilə əlaqədardır.

Çillədə qarpız olmadıqda belə, başqa bir meyvə kəsilməlidir. Xalq arasındakı inanca görə, kim bu gecə çoxlu meyvə yesə, o, bütün qışı xəstələnməz.

Xalq təqvimindən irəli gələn Çillə bayramında həm də nişanlı, yeni ailə quran qızlara xonçalar aparılar və həmin xonçada hökmən qarpız olar.

Beləliklə, qarşıdan gələn Çillə bayramımız mübarək olsun. Qoy qış qarı, soyuğu ilə yanaşı, həm də qarpızın içi rəngdə günəş də doğursun ki, soyuğu onun istisi ilə azacıq da olsa, dəf edə bilək. Çünki qış gəldi-gedərdir, Günəş isə daimi, həm də bütün fəsillərin gözəlliyidir..

# Abbas Abbasovun Samvel Karapetyanla biznesi ortağı olduqları üzə çıxdı

ANALİZ

***İçimizdə elə şəxslər var ki, onlar bəzən dövlətçilik maraqlarına qarşı qərəzli mövqe tutanda təəccüblənirsən. Düşünürsən ki, bu şəxs nədən Azərbaycan xalqının və dövlətinin mənafeyni xarici dairələrin istəklərinə qurban verməyə çalışırlar. Səthi araşdırma apardıqdan sonra, necə deyərlər, xoruzun quyruğu görünür. Məlum olur ki, satqın və xəyanət yolu tutan azərbaycanlı adına iddialı şəxslərin soyunda, kökündə zibil var.***

Yeni onların qanları qarışıqdır. Barəsində zor gücünə hakimiyyəti ələ keçirməyə yönələn hərəkətlərdə ittiham olunan və həbs edilən Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyevin tərcümeyi-halında ermənilərlə qohumluğu olan məqamlar üzə çıxır. Onun həyat yoldaşı ermənidir. Məhz erməni həyat yoldaşının əlaqələri hesabına Ramiz Mehdiyev sovet dövründə Kommunist partiyasına gətirilib və sonra müxtəlif vəzifələrə irəli çəkilib. Ramiz Mehdiyevin işi ilə bağlı istintaq araşdırmaları genişləndikcə məlum olur ki, dəstənin fəal üzvlərindən hesab olunan Abbas Abbasovun soy-kökü ermənilərə bağlıdır. Məlumata görə, Abbas Abbasovun qayınanası 1924-cü il Şəmkir rayonunun Borum kəndində doğulmuş Göharik Voskanovna adlı erməni olub, sonradan adı Gövhər olaraq dəyişdirilib və Gəncədə həyat yoldaşı Mobil Quluyevin yanında dəfn edilib. Abbas Abbasov baş nazirin birinci müavini olduqdan sonra erməni qayınanası məcburən İmamzadədə islam dinini "qəbul edib", vəfat etməmişdən öncə isə erməni qohumlarının adlarını sadalayaraq, Ermənistanda dəfn olunmağını vəsiyyət edib. Abbasov isə sevimli qayınanası vəfat edəndə belə Azərbaycana gələ bilməyib. Abbas Abbasov həyat yoldaşı Bella Nobilovnanın (Nobil qızı) da adını dəyişdirərək Bilqeyis qoyub. O, Xarici Dillər Universitetində çalışıb, 1995-ci ildən sonra fəaliyyətini praktiki olaraq dayandırsa da, iş cədvəlinə uyğun olaraq maaş alıb. On il ərzində qiyabi olaraq elmlər namizədi olub, dosent adına yiyələnib. Onun akademik fəaliyyəti ilə bağlı şübhəli məqamlar olduğu iddia edilir.

### Abbas Abbasovun erməni qohumu olan ortaqları

Ermənilərlə qohumluğu A.Abbasovun biznes fəaliyyətində də rol oynayıb. İddialara görə, onun Samvel Karapetyanla ailəvi və biznes əlaqələri mövcuddur. Məhz S.Karapetyanın dəstəyi ilə A.Abbasov Ermənistanın Göyçə gölü ərazisində özünə otel və turizm mərkəzi inşa etdirib. Məlumdur ki, Samvel Karapetyan Rusiyada və Ermənistanda böyük biznesi olan ermənidir. Samvel Karapetyan 2000-ci ildə "Taşir" Xeyriyyə Fondunu qurduqdan sonra Rusiyada qazandığı maliyyə vəsaitlərini Ermənistan və Azərbaycanın işğal altında olmuş ərazilərində yerləşdirib. 2020-ci ildə Ermənistanın keçmiş prezidenti Robert Köçəryanın həbsdən azad edilməsi üçün girovun bir hissəsini Samvel Karapetyan ödəyib. Bu erməni məxluq Qarabağda terrorçuların maliyyələşdirilməsində, onların silah-sursatla təmin olunmasında yaxından iştirak edib. Hazırda Paşinyanın əleyhinə dolaşdığı üçün həbs edilərək arxivə göndərilib. Məhz belə bir terroru maliyyələşdirən şəxslə A.Abbasov yaxın əlaqələr qurub, dostluq edib. Bu da təbii ki, Azərbaycana olan düşmənçilik münasibətindən irəli gəlir. Məhz bu düşmənçilyin nəticəsidir ki, Abbas Abbasov 2013-cü ildə hazırlanan ölkədə qanuni hakimiyyəti zorla ələ keçirmək planlarının əsas fiqurlarından olub. O, hələ baş nazirin müavini olanda Rusiyanın müəyyən dairələri ilə sıx əlaqələrə malik idi. Vəzifəsindən azad edildikdən (2006-cı ildən) sonra Rusiyaya köçdü və Azərbaycana qarşı planların kordinatoru-icraçısı missiyasını üzərinə götürdü. 2012-ci ilin 28 sentyabr tarixində Abbas Abbasovun rəhbərliyi ilə "Rusiya Azərbaycan Təşkilatları İttifaqı"nın yaradılması bu prosesin start nöqtəsi oldu.

Təşkilatın yaradılması ilə bağlı bəyanatda məqsədin "azərbaycanlıların Rusiyanın ictimai-siyasi həyatına fəal inteqrasiyasını təşkil etmək" olduğu iddia edilsə də, gerçək hədəf Rusiyadakı diaspor təşkilatlarımızın və tanınmış azərbaycanlıların Kremlin çatiri altında toplanması idi. Rusiya Azərbaycan Təşkilatları İttifaqının fəaliyyət konsepsiyası bu ölkədəki ictimai təşkilatlarımızın Rusiyanın yeni dövlət strategiyası çərçivəsində effektiv fəaliyyətini təmin etmək, Bakı-Moskva xəttində mübahisəli məsələlər yarandığı zaman diasporumuzun Azərbaycanın əleyhinə yönləndirməkdən ibarət olub.



### Hələ də A.Abbasov təlimatları Rusiya xüsusi xidmət orqanlarından alır

Faktlarla sübuta yetirilir ki, Abbas Abbasov Azərbaycanda hakimiyyət dəyişikliyi planını həyata keçirmək üçün Milli Şuraya 20 milyon dollar vəd edib və bunun bir qismini göndərib. Milli Şuranın keçirdiyi aksiyalara, seçki hazırlığına, imzatoplama kampaniyasına və digər məsələlərə sərf olunan pulların Moskvadan, birbaşa Abbas Abbasovdan gəldiyi haqqında da kifayət qədər məlumat vardı. Pul bölgüsündə Milli Şurada düşən dava diqqəti bu fakta xüsusilə yönəltdi. Seçki ərəfəsində Cəmil Həsənliyə imza toplamaq üçün ayrılan 500 min dolların Müsavat və AXCP tərəfindən mənimsənildiyinə dair məlumatlar yayılmışdı. Abbas Abbasovun Azərbaycandakı fəaliyyətini digər kanallar vasitəsilə gücləndirdiyi də deyilir. Məlumatlara görə, Abbasov yaxın olduğu Müsavat sədrinin müşaviri, sabiq kənd təsərrüfatı naziri Tofiq Hüseynlini Bakıya öz adamı kimi göndərib. Müsavat Partiyasının Milli Şuraya Abbas Abbasovun adından Tofiq Hüseynli dəvət edib və müxtəlif vədlərlə İsa Qəmbəri bu addımı atmağa razı salıb.

2014-cü ildə Türkiyə Milli İstihbarat Təşkilatının "Milyarderlər ittifaqı" və nurçularla bağlı Azərbaycana təqdim etdiyi məxfi məlumatlar da Milli Şuranın Rusiya bağlantılarını ifşa edir. Bu barədə həmin dövrdə mediada məlumatlar getmişdi. Təqdim edilən dosyelər MİT-in illər ərzində topladığı audio, video, foto və operativ məlumatlardan ibarət olub. Dosyelərdə Rusiyada yaradılan "Milyarderlər ittifaqı"nın 2013-cü il prezident seçkiləri ərəfəsində Azərbaycanda hakimiyyət dəyişikliyi planları, bu məqsədlə Azərbaycan müxalifəti ilə birgə fəaliyyətinə dair məlumatlar öz əksini tapıb. İttifaq üzvlərinin Türkiyədə, xüsusən "Milyarderlər ittifaqı"nın üzvləri olan Telman İsmayılova məxsus "Mardan Palace" otelində keçirdikləri gizli görüşlər izlənilib. Dosyedə ən çox adı çəkilən şəxslərdən biri Abbas Abbasovdur. Abbas Abbasovun Türkiyəyə müntəzəm səfərləri, siyasi və biznes dairələri ilə təmaslarının səs yazısının da təqdim olunan informasiyalar arasında olduğu deyilir. Onun bir neçə gün öncəyə qədər Türkiydə olduğu və sonra da rəsmi Kremlin tapşırığı ilə Ruiyaya qaçdığı bildirilir. Yəni A.Abbasov dost, qardaş Türkiyəmizin Azərbaycana xəyanət edən şəxsin həbsinə qərar verəcəyini Rusiya xüsusi xidmət orqanları anlayıb. Ona görə də, əlaltıları olan A.Abbasovu qorumaq üçün ona Türkiyəni tərk edərək Moskvaya gəlməsini əmr ediblər. Lakin onun gizlənməsi uzun çəkməyəcək. Çünki Azərbaycanın gücü və qüdrəti kimsəyə cinayətdən yayınmağa imkan vermir. Gec-tez A.Abbasov həbs edilərək Azərbaycana gətiriləcək və əqidə dostu, yaxın ortağı Ramiz Mehdiyev, Əli Kərimli və digərləri ilə ədalət mühakiməsinə çıxarılacaq.

*İLHAM ƏLİYEV*

# "Konstitusiya və Suverenlik İli" çərçivəsində amnistiya təşəbbüsü: Azərbaycan dövlətçiliyinin humanist və hüquqi mahiyyətinin təzahürü

***Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğu, milli suverenliyin möhkəmləndirilməsi və insan hüquqlarının etibarlı təmin olunması istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü siyasət müasir dövlətçilik modelimizin əsas göstəricilərindəndir. Prezident cənab İlham Əliyevin "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiyanın elan edilməsi təşəbbüsü də bu strateji siyasi xəttin məntiqi davamı olmaqla yanaşı, ölkəmizin hüquqi, siyasi və ictimai həyatında mühüm əhəmiyyət kəsb edən hadisə kimi qiymətləndirilir.***



*Akif Rəfiyev,*
*Qarabağ müharibəsi veteranı,*
*Ədliyyə general-mayoru,*
*Azərbaycan Ağsaqqallar Şurasının İdarə Heyətinin üzvü,*
*Binəqədi rayon Ağsaqqallar Şurasının sədri*

Müstəqil Azərbaycan dövlətinin möhkəm və sarsılmaz təməli Ümummilli Lider Heydər Əliyevin siyasi iradəsi, uzaqgörən dövlətçilik konsepsiyası və xilaskarlıq missiyası nəticəsində formalaşmışdır. XX əsrin sonlarında mürəkkəb geosiyasi şəraitdə Ulu Öndərin rəhbərliyi ilə həyata keçirilən sistemli islahatlar Azərbaycan dövlətinin dağılmaq təhlükəsindən xilas edilməsinə, müstəqilliyin qorunub saxlanılmasına və möhkəmləndirilməsinə xidmət etmişdir. Məhz bu siyasi kursun mühüm nəticələrindən biri kimi qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası müasir dövlətçiliyimizin hüquqi əsasını təşkil etmiş, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun konseptual çərçivəsini müəyyənləşdirmişdir. Prezident cənab İlham Əliyevin həyata keçirdiyi dövlət siyasətinin əsas ideoloji dayaqlarından biri humanizmdir. Dövlət başçısının siyasi fəaliyyətinin mərkəzində insan amili, vətəndaşların hüquq və azadlıqlarının qorunması, sosial rifahın yüksəldilməsi, ədalət və mərhəmət prinsipləri dayanır. Bu humanist yanaşma yalnız sosial və iqtisadi sahələrdə deyil, eyni zamanda hüquq-mühafizə və cinayət-hüquq siyasətində də öz aydın ifadəsini tapır. Cinayətə görə cəzanın yalnız cəzalandırma deyil, həm də islah və tərbiyə məqsədi daşıması müasir hüquqi dövlət anlayışının əsas tələblərindən biridir.

Bu kontekstdə ölkə başçısının 15 dekabr 2025-ci il tarixində amnistiya elan edilməsi təşəbbüsü ümumbəşəri humanizm dəyərlərinə sadiqliyin, hüquqi balansın və sosial məsuliyyətin bariz nümunəsidir. Dövlət başçısı bu təşəbbüslə cəmiyyətə açıq mesaj verir ki, Azərbaycan dövləti öz gücünü yalnız sərt hüquqi mexanizmlərdə deyil, eyni zamanda mərhəmət, etimad və sosial ədalət prinsiplərində görür. Amnistiya cəzadan azad etmənin tərbiyəvi əhəmiyyətinə inanmaqla yanaşı, insanın islah olunmasına və yenidən cəmiyyətə inteqrasiyasına verilən yüksək dəyərin ifadəsidir.

Amnistiya aktının layihəsinə əsasən, Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüş əməliyyatlarında, o cümlədən 44 günlük Vətən müharibəsində və 2023-cü il sentyabrın 19–20-də həyata keçirilmiş antiterror əməliyyatlarında iştirak etmiş şəxslər, habelə bu əməliyyatlarda həlak olmuş və ya itkin düşmüş şəxslərin yaxın qohumları amnistiyanın əsas şamil olunduğu kateqoriyalar sırasındadır. Bununla yanaşı, Ermənistan Respublikasının hərbi təxribatları nəticəsində mülki əhali arasında sağlamlığını itirmiş şəxslər, qadınlar, 60 yaşına çatmış şəxslər, cinayət törədərkən yetkinlik yaşına çatmayanlar və digər sosial həssas qruplar da bu humanist qərardan yararlanacaqlar.

Eyni zamanda, böyük ictimai təhlükə törətməyən, az ağır və ya ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş bir sıra şəxslərin cəzadan azad edilməsi və ya cəzalarının çəkilməmiş hissəsinin azaldılması nəzərdə tutulur. Bu yanaşma cəzanın fərdiləşdirilməsi prinsipinin və hüquqi ədalətin təmin olunmasının mühüm mexanizmi kimi çıxış edir.

Qeyd edilməlidir ki, bu amnistiya aktı müstəqil Azərbaycanın tarixində miqyasına görə ən böyük amnistiya olacaqdır. İlkin proqnozlara əsasən, ümumilikdə 20 mindən çox şəxs amnistiya aktının təsiri altına düşəcək, onlardan 5 mindən çoxu azadlıqdan məhrum etmə cəzasından tam azad ediləcək, minlərlə şəxsin isə cəzası azaldılacaq və ya cinayət məsuliyyətindən azad olunacaqdır. Bu statistika Azərbaycan dövlətinin humanist mahiyyətini və hüquqi islahatlara sadiqliyini açıq şəkildə nümayiş etdirir.

Azərbaycanın müasir tarixində amnistiya və əfv institutları ardıcıl və sistemli şəkildə tətbiq olunmuşdur. 1995-ci ildən etibarən qəbul edilən 12 amnistiya aktı 130 mindən artıq şəxsə şamil edilmiş, 71 əfv fərmanı və sərəncamı ilə on minlərlə məhkum əfv olunmuşdur. Ümummilli Lider Heydər Əliyev tərəfindən imzalanmış əfv fərmanları və qəbul edilmiş amnistiya aktları bu humanist ənənənin əsasını qoymuş, Prezident cənab İlham Əliyev tərəfindən isə bu siyasət müasir dövrün tələblərinə uyğun şəkildə davam etdirilmişdir. Eyni zamanda Mehriban xanım Əliyevanın Milli Məclisin deputatı olduğu dövrdə irəli sürdüyü amnistiya təşəbbüsləri bu humanist xəttin institusional davamlılığını təsdiqləyir.

Nəticə etibarilə, cənab İlham Əliyevin "Konstitusiya və Suverenlik İli" münasibətilə irəli sürdüyü amnistiya təşəbbüsü Azərbaycan dövlətinin hüquqi dövlət prinsiplərinə, milli suverenliyə və ümumbəşəri humanizm dəyərlərinə sadiqliyinin parlaq ifadəsidir. Bu təşəbbüs dövlət-vətəndaş münasibətlərində etimadın möhkəmləndirilməsinə, sosial ədalətin təmininə və cəmiyyətin sağlam əsaslar üzərində inkişafına xidmət edən mühüm siyasi-hüquqi addım kimi tarixə düşür.

# AMNİSTİYA təşəbbüsü: "Konstitusiya və Suverenlik İli"nin ali yekunu



***Müstəqilliyimizin bərpasından ötən 34 ildə məhz bu ilin dövlətimizin başçısı tərəfindən "Konstitusiya və Suverenlik İli" elan edilməsi konstitusiya və suverenlik kimi yüksək ali ifadələri bir araya gətirə bilməmiz səbəbi idi. Çünki 2023-cü ilədək konstitusiya quruluşunda natamamlıq vardı, torpaqlarımızın işğal altında olması səbəbindən suveren deyildik. 2020-ci ilin Böyük Zəfəri və 2023-cü ilin birgünlük lokal xarakterli antiterror əməliyyatından sonra konstitusiya quruluşumuz da bərpa olundu, suverenliyimiz də.***

Və budur, biz 2025-ci ili "Konstitusiya və Suverenlik İli" kimi başa vururuq. Dövlətimizin başçısı, müzəffər Ali Baş Komandan İlham Əliyevin böyük amnistiya təşəbbüsü isə məhz bu dövlətə, bu xalqa layiq humanist addımların növbətisi, eyni zamanda "Konstitusiya və Suverenlik İli"nin ali yekunudur.

### Təməli Ulu Öndərin iradəsi olan amillər

1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə Qayıdışı ilə həm 1918-ci ildəki kimi itirilməkdə olan müstəqilliyimiz, həm də həyatı hər an təhlükə ilə üz-üzə qalan xalq xilas oldu. Müstəqil Azərbaycanda yeni hakimiyyətlə ölkə sosial-iqtisadi inkişafa qədəm qoydu, eləcə də qanunun aliliyi təmin edildi, vətəndaşların hüquq və azadlıqlarının yüksək səviyyədə qorunması mühüm prinsipə çevrildi.

Qanunvericilik bazası olmadan sosial, iqtisadi və siyasi islahatların həyata keçirilməsinin mümkün olmadığını nəzərə alan Heydər Əliyev ölkəmizdə hüquqi dövlət quruculuğuna bu bazanın yaradılmasından başladı. Bu isə öz əksini Onun rəhbərliyi ilə hazırlanan və 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilən müstəqil Azərbaycan Respublikasının ilk milli Konstitusiyasında tapdı.

Əsas Qanunumuzda insan hüquq və azadlıqlarının təmini dövlətin ali məqsədi kimi təsbit olunub. Konstitusiyanın üçdə bir hissəsini bu sahədəki mövcud beynəlxalq-hüquq normalarına əsaslanan müddəalar təşkil edir. Ən əsası isə Əsas Qanunumuzda insan və vətəndaş hüquq və azadlıqlarını qorumaq bütün hakimiyyət orqanlarının vəzifəsi kimi müəyyən edilib, onun 48 maddədən ibarət üçüncü fəslinin bütün müddəaları insana, onun ləyaqətinə, hüquqlarına hörmət ruhunda yazılıb, insan hüquq



və azadlıqları ən yüksək dəyər kimi təsbit olunub.

Böyük Qayıdışdan sonra ölkəmizdə eyni zamanda humanizm ənənələrinin təməli qoyuldu, 1995-ci ildə əfvetmə və amnistiya institutları yaranmağa başlandı. 22 yanvar 1998-ci il tarixdə Ümummilli Lider Heydər Əliyev "Azərbaycan Respublikasında ölüm hökmünün ləğv edilməsi haqqında" bəyanat verərək ölüm hökmünün ləğv olunduğunu bildirdi, bununla bağlı 3 fevral 1998-ci ildə Azərbaycan Respublikasının Milli Məclisinə qanunvericilik təşəbbüsü qaydasında müraciət etdi və 10 fevral 1998-ci il tarixdə ölüm cəzası ləğv olunaraq ömürlük azadlıqdan məhrumetmə cəzası ilə əvəz olundu. Şərqdə ilk dəfə məhz ölkəmizdə ölüm cəzasının ləğv edilməsi dünyada böyük əks-səda doğurdu. Bu siyasətin nəticəsi olaraq Ulu Öndər tərəfindən 1995-2003-cü illərdə 32 əfv fərmanı imzalanıb, 1993-2003-cü illərdə 7 dəfə amnistiya elan olunub, nəticədə minlərlə insan azadlığa qovuşub.

### Humanizm və mərhəmət ənənələrinə sadiqlik

Heydər Əliyev siyasi kursunun davamı olaraq son 22 ildə ölkədə dövlətçiliyin inkişafı, tərəqqisi ilə insan amilinə verilən dəyərin eyni xətt üzrə irəlilədiyinin şahidi olduq. Vətəndaşa verilən dəyər idi ki, dövlət başçısının fəaliyyətinin əsas istiqamətini işğal altında olan torpaqların azad edilməsi, 30 il məcburi köçkün həyatı yaşayan soydaşlarımızın öz ata-baba yurduna qayıtması uğrunda mübarizə təşkil edirdi. 20 il ərzində dünyanın ən mötəbər kürsülərindən eşitdik Qarabağın haqları haqqında dövlət başçısının fikirlərini. Müharibə etmədən, qan tökmədən torpaqlarımızın sülh yolu ilə qaytarılması təşəbbüslərini dəfələrlə dinlədik. Lakin bu təşəbbüsü eşidən qulaqlar karlaşır, gözlər məsələnin həlli üçün labüd yolları görə bilmirdi. Belə olan təqdirdə isə Liderimiz torpaqların hərb yolu ilə azad ediləcəyini bütün dünyaya bəyan etdi və bunu zamanla reallaşdırdı. Qarabağ həqiqətlərini görə bilməyənlər, Qarabağın haqqı olanları eşitməyə kar olanlar 2020-ci ilin 44 günlük müharibəsi zamanı Azərbaycanın nəyə qadir olduğunu, öz haqqını necə tələb etdiyini gördü və elə həmin gündən ölkəmizə qarşı münasibətlər də dəyişməyə başladı.

Nəticə etibarilə gərgin mübarizədən, çoxsaylı itkilərdən sonra torpaqlarımız düşməndən geri alındı. Bununla konstitusiya quruluşumuz və suverenliyimiz bərpa olundu.

Ümummilli Liderimiz Heydər Əliyevin humanizm və mərhəmət ənənələrinə sadiqliyin nəticəsidir ki, ölkənin taleyüklü illərində insan amili də diqqətdən kənarda qalmamış, Prezident İlham Əliyev tərəfindən 2003-2025-ci illər ərzində 39 əfv sərəncamı imzalanıb, həmin dövrdə 5 amnistiya aktı qəbul edilib. Cəzadan azad olunaraq qanunlara dönmədən əməl edəcəklərinə və dövlətimizin inkişafına öz töhfələrini verəcək şəxslərə ümid edərək Prezident İlham Əliyevin 15 dekabr 2025-ci ildə amnistiya elan edilməsi təşəbbüsü də Heydər Əliyev siyasətinin, humanizminin uğurlu davamıdır.

### Eyni zamanda humanizmin incə məqamları

Prezident İlham Əliyevin ölkəyə 22 illik fəaliyyəti dövründə dəfələrlə əfv sərəncamları imzalanıb, amnistiya aktı qəbul edilib. Yeni amnistiya təşəbbüsündə isə daha incə məqamlar diqqəti cəlb edir. Budəfəki amnistiyanın kimlərə şamil olunması elə bu məqamların incəliyindən özü söhbət açır: Amnistiya aktının layihəsinə əsasən Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüş əməliyyatlarında, o cümlədən Vətən müharibəsində və 2023-cü il sentyabrın 19-20-də keçirilmiş antiterror əməliyyatında iştirak etmiş şəxslərin, eləcə də bu əməliyyatlarda həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumları, mülki əhaliyə qarşı Ermənistan Respublikasının hərbi təxribatı nəticəsində əlil olmuş şəxslər.

Bu, ölkənin bütövlüyünə, suverenliyinə və bunun əldə olunmasında həyatını itirən insanların yaxınlarına verilən dəyər, qiymətdir. Eyni zamanda çox incə düşünülmüş məqamı ilə dünyada baş verən ilk hadisədir.

Habelə qadınların, 60 yaşına çatmış şəxslərin, cinayət törədərkən yetkinlik yaşına çatmayanların və digər şəxslərin cəzadan və ya cinayət məsuliyyətindən azad edilməsinin nəzərdə tutulması daha incə bir məqamdır: qadın, yaşlı və yetkinlik yaşına çatmayan vətəndaşlara ayrıca bir yumşaq yanaşma tərzidir.

Layihəyə əsasən böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət, habelə ehtiyatsızlıqdan cinayət törətdiklərinə görə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş bir sıra şəxslər cəzadan azad ediləcək və ya cəzalarının çəkilməmiş hissəsi azaldılacaqdır ki, bax, bütün bunlar ölkəmizdə cinayət-hüquq siyasətinin formalaşdırılmasında humanizmin əsas prinsip kimi qəbul edilməsinin təsdiqidir.

### 20 mindən çox şəxsə şamil ediləcək amnistiya

1995-ci ildən etibarən ümumilikdə qəbul edilən 12 amnistiya aktı 130 mindən artıq nəfərə şamil edilib. Prezident İlham Əliyevin təşəbbüsü əsasında 2021-ci ildə 8 Noyabr - Zəfər Günü münasibətilə elan olunan amnistiya aktı 17 mindən artıq nəfərə şamil edilib.

Ümummilli Lider Heydər Əliyev tərəfindən 1995-2003-cü illərdə 32 əfv fərmanı imzalanıb, həmin dövrdə 7 amnistiya aktı qəbul edilib. Prezident İlham Əliyev tərəfindən isə 2003-2025-ci illər ərzində 39 əfv sərəncamı imzalanıb, həmin dövrdə 5 amnistiya aktı qəbul edilib.

Ümumilikdə 71 əfv fərmanı və sərəncamla 10162 məhkum əfv olunub. Prezident İlham Əliyev tərəfindən imzalanmış sərəncamlar isə 7060 nəfərə şamil olunub.

Milli Məclisin deputatı olarkən Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2007-ci, 2009-cu, 2013-cü və 2016-cı illərdə amnistiya aktı qəbul edilib.

Prezident İlham Əliyevin təklifi sayəsində amnistiya aktı tətbiq ediləcək şəxslərin, o cümlədən azadlıqdan məhrumetmə cəzasından azad ediləcək məhkumların sayına görə ən böyük amnistiya olacaq. Belə ki, amnistiya aktının ümumilikdə 20 mindən çox şəxsə şamil ediləcəyi gözlənilir. Bunlardan 5 mindən çox məhkumun azadlıqdan məhrumetmə cəzasından azad ediləcəyi, həmin cəzaya məhkum olunmuş 3 mindən artıq şəxsin cəzasının azaldılacağı, 7 mindən çox məhkumun azadlığın məhdud-



laşdırılması cəzasından, 4 minə yaxın məhkumun azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan və ya şərti tətbiq edilmiş cəzalardan, habelə mindən çox şəxsin cinayət məsuliyyətindən azad ediləcəyi proqnozlaşdırılır.

### "Konstitusiya və Suverenlik İli"nin ali yekunu

Müstəqil, torpaqları azad, namus və şərəfi xilas edilən Azərbaycan vətəndaşı 2025-ci ili "Konstitusiya və Suverenlik İli" kimi yaşamaqla qürur duyur. Qürur ilinin sonuna yaxın 20 mindən artıq şəxsin azadlığı, cəzasının azaldılması ilə bağlı amnistiya isə bu qürurun üzərinə daha bir qürur gətirir-dövlətin vətəndaşına sevgisi, onu düşünməsi, ümid etməsi, inanması qürurunu. Odur ki, bu amnistiya layihəsini hər bir azərbaycanlı "Konstitusiya və Suverenlik İli"nin ali yekunu kimi dəyərləndirir və qürur duyur ki, 22 il əvvəlində dövlət başçısının "Mən hər bir azərbaycanlının prezidenti olacağam" vədi bu qədər yüksək səviyyədə öz əksini tapıb.

***Mətanət Məmmədova***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu " istiqaməti çərçivəsində hazırlanıb.*

SON SƏHİFƏ

# SƏS

20 dekabr
2025-ci il

# Mərkəzi Gömrük Hospitalı ilə Britaniya-Azərbaycan Həkim və Stomatoloqlar Assosiasiyası arasında əməkdaşlıq memorandumu imzalanıb

***18 dekabr 2025-ci il tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Mərkəzi Hospitalı və Britaniya-Azərbaycan Həkim və Stomatoloqlar Assosiasiyası arasında əməkdaşlıq memorandumunun imzalanmasına həsr olunmuş tədbir keçirilib.***




Tədbirdə Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, t.ü.f.d., Əməkdar həkim Ceyhun Məmmədov, rəis müavini, t.ü.f.d., dosent İsmayıl Əfəndiyev, Mərkəzi Gömrük Hospitalının rəisi-baş həkim, t.e.d.




Bəxtiyar Musayev və Britaniya-Azərbaycan Həkim və Stomatoloqlar Assosiasiyasının rəhbəri Fidan İsrafilbəyli iştirak ediblər.

Tədbirdə açılış nitqi ilə çıxış edən Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, t.ü.f.d., Əməkdar həkim Ceyhun Məmmədov memorandumu Azərbaycan səhiyyə sistemində beynəlxalq əməkdaşlığın genişləndirilməsi, tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi, elmi-tədris əlaqələrinin gücləndirilməsi və qabaqcıl Britaniya tibbi təcrübəsinin ölkəmizdə tətbiqi baxımından mühüm əhəmiyyət daşıyan strateji sənəd kimi dəyərləndirib.

İdarə rəisi Ceyhun Məmmədov bildirib ki, imzalanmış memorandum çərçivəsində tərəflər arasında birgə elmi tədqiqatların aparılması, həkimlərin bilik və bacarıqlarının artırılması, təlim və seminarların təşkili, mütəxəssis mübadiləsi, eləcə də müasir müalicə və diaqnostika metodlarının tətbiqi istiqamətində səmərəli əməkdaşlıq həyata keçiriləcək. O, bu əməkdaşlığın Mərkəzi Gömrük Hospitalının beynəlxalq tibbi qurumlarla əlaqələrinin daha da möhkəmlənməsinə, tibbi kadrların peşəkar inkişafına və pasiyentlərə göstərilən xidmətlərin keyfiyyətinin yüksəlməsinə mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

Britaniya-Azərbaycan Həkim və Stomatoloqlar Assosiasiyasının rəhbəri Fidan İsrafilbəyli çıxışında memorandumun iki ölkənin tibb ictimaiyyəti arasında əlaqələrin daha da dərinləşməsinə, bilik və təcrübə mübadiləsinin sistemli şəkildə həyata keçirilməsinə geniş imkanlar yaradacağını vurğulayıb, bu əməkdaşlığın Azərbaycan səhiyyəsinin inkişafına, xüsusilə qadın və uşaq sağlamlığı sahəsində qabaqcıl beynəlxalq yanaşmaların tətbiqinə mühüm töhfə verəcəyinə əminliyini bildirib.

Daha sonra memorandumu Mərkəzi Gömrük Hospitalının rəisi-baş həkim, t.e.d. Bəxtiyar Musayev və Britaniya-Azərbaycan Həkim və Stomatoloqlar Assosiasiyasının rəhbəri Fidan İsrafilbəyli imzalayıblar.

Tədbirin sonunda Mərkəzi Gömrük Hospitalının rəisi-baş həkim, t.e.d. Bəxtiyar Musayev Britaniya-Azərbaycan Həkim və Stomatoloqlar Assosiasiyasının rəhbəri Fidan İsrafilbəyliyə xatirə hədiyyəsi təqdim edib. Tədbir xatirə şəklinin çəkilməsi ilə başa çatıb.

## ELAN

**YAP Ağstafa rayon təşkilatı tərəfindən Tağızadə Rəşad Aydın oğluna verilmiş 164807 nömrəli YAP üzvülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Ziya LTD – 0124977696, 0503067744**
**7. Bakmətbuat MMC 0502644010**

**1 nüsxə 1 aylığı 8 AZN**
**6 aylıq 48 AZN**
**1 illik 96 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Uşaqlarda niyə vitamin çatışmazlığı yaranır?

***"Vitamin çatışmazlığı yalnız "vitamin verməmək"lə bağlı deyil. Bəzən uşaq düzgün qidalanır, amma orqanizm vitamini ala bilmir, mənimsəmir və ya tez itirir". Bu barədə SİA-ya açıqlamasında pediatr Elşən Tağıyev deyib. Onun sözlərinə görə, qidalanma balanssızlığı olduqda uşaq zahirən doyur, lakin bədəni ac qalır: "Fast-food, şirniyyat və paketlənmiş qidaların üstünlük təşkil etməsi, tərəvəz, meyvə, ət və balığın az istehlakı, eləcə də uşağın yeməklərdə seçici olması bu vəziyyətə səbəb olur. Belə hallarda xüsusilə D vitamini, dəmir, B12 və sink çatışmazlığı yaranır.***



*PEDİATR mühüm məqamlara aydınlıq gətirdi*

Günəşdə az vaxt keçirmək ən çox unudulan səbəblərdən biridir. D vitamini yalnız qidadan alınmır. Uşaq günəşə az çıxırsa, qapalı mühitdə çox qalırsa və dərisi günəş-



lə kifayət qədər təmasda olmursa, nəticədə D vitamini çatışmazlığı yaranır. Bu isə sümüklərə, immunitetə və inkişaf tempinə mənfi təsir göstərir.

Bağırsaq problemləri və mənimsəmə pozğunluğu zamanı uşaq vitamin qəbul etsə belə, orqanizm onu lazımi şəkildə mənimsəyə bilmir. Tez-tez ishal, qəbizlik, reflüks, çölyak xəstəliyi və laktoza intoleransı kimi hallar xüsusilə dəmir, kalsium və B qrup vitaminlərinin mənimsənilməsinə mane olur. Lazımsız və uzunmüddətli dərman istifadəsi də vitamin çatışmazlığına səbəb ola bilər. Uzun müddət antibiotiklərin, antiasidlərin və bəzi epilepsiya dərmanlarının qəbulu bağırsaq florasını pozur və vitamin balansının itməsinə gətirib çıxarır.

Sürətli böyümə dövrlərində isə problem hər zaman qidada olmur, tələbatın artması ilə bağlı olur. Körpəlik dövrü, məktəbəqədər yaş və yeniyetməlik mərhələsində orqanizm sürətlə böyüyür və vitamin ehtiyacı əhəmiyyətli dərəcədə artır. Vitamin çatışmazlığı hər zaman aşkar simptomlarla özünü göstərməyə bilər. Bəzən sadəcə halsızlıq, iştahsızlıq və tez-tez xəstələnmə ilə müşahidə olunur. Ona görə də profilaktik və ağıllı yanaşma panikadan daha dəyərlidir".

***Günel Fərzəliyeva***


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3000**